# AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

**№ 72** **Bakı şəhəri, 27 fevral 2020-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə razılaşdırılmış təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 dekabr tarixli 463 nömrəli, 10 dekabr tarixli 471 nömrəli, 17 dekabr tarixli 477 nömrəli, 2020-ci il 31 yanvar tarixli 28 nömrəli, 7 fevral tarixli 34 nömrəli və 17 fevral tarixli 44 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2710 19 210 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 210 | – – – – – – – reaktiv mühər-riklər üçün yanacaq: | | |
| 2710 19 210 1 | – – – – – – – – re-aktiv mühər-riklər üçün TC-1 markalı yanacaq | - | 15 (01.01.2021-ci il tarixinədək - 0 %) |
| 2710 19 210 9 | – – – – – – – – digərləri | - | 15 |

1.2. 2710 19 250 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 250 | – – – – – – – digər: | | |
| 2710 19 250 1 | – – – – – – – – KO-20 markalı işıq-landırıcı kerosin və KT-2 markalı texniki məqsədlər üçün kerosin | - | 15 (01.01.2021-ci il tarixinədək - 0 %) |
| 2710 19 250 9 | – – – – – – – – digərləri | - | 15 |

**2.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir və 2021-ci il yanvarın 1-dək qüvvədədir.

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 4 mart.- S.9.